Duyğu yaxraqları

AXTARIRAM

Laləli, nərgizli, güllü, bülbüllü,
Ceyranlı, cüyürlü düz axtarıram.
Özü yaraşıqlı, saçı sünbüllü,
Bir maral baxışlı qız axtarıram.
Baxışıyla ürəklərə od salan,
Bir yol can verəndə, min yol can alan,
Hər zaman təbəssüm, məhəbbət, dolan,
Qaragöz, alagöz göz axtarıram.

Kəlməsi qızıldan, ləldən qiymətli,
Həm şirin ləhcəli, şirin söhbətli,
Həm odlu şeirli, odlu sənətli,
Ürəkləri açan söz axtarıram.
Şeir həsrətliyəm, doludur qəlbim,
Titrəyir sinəmdə çalınmamış sim,
Danış, ey qələmim, yaz, ey qələmim,
Hər şeyi həyatda düz axtarıram.

Qəhrəman MURAD.

BU HƏYATIN YOLLARINDA

Bu həyatın yollarında,
Yaşam da var, ölüm də var.
Əgər insan yaşayırsa,
Məğlub da var, dözüm də var.

Bu həyatın yollarında
Sevinc də var, kədər də var.
Asan, çətin bu yollarda,
Şəkər də var, zəhər də var.

Yaşamaqçün gərək səndə,
Pak, dözümlü ürək ola.
İnsan odur bu dünyada,
Bir-birinə gərək ola,
Yıxılana dirək ola.

Elnarə ASLAN

Azərbaycanım

Vətəni sevmədəyəm mən ürəyim, canım ilə,
Borcluyam xidmət edəm yurduma vicdanım ilə.
Hər düzü, hər çəməni göz oxşayan mənzərədir,
Tanı dünyada onu Muğanım, Şirvanım ilə.
Bağının, bağçasının nəğməli, şən bülbülüyəm,
Bəxtiyar ömr edirəm sevgili-cananım ilə.
Ölkəmin hər qarışı, hər daşı güllər bitirir,
Qoy baxım, qürrələnim mən bu gülüstanım ilə.
Dalğalansın Xəzərim, kükrəsin Kürüm, Arazım,
Söndürüm təşnələri bol sulu ümmanım ilə.
Bu diyar igidlərin, cəsurların məskənidir,
Düşmüşəm tarixə mən neçə qəhramanım ilə.
Yüksələn bayrağımız enməyəcəkdir bir daha,
Yetdim azadlığıma tökülən al qanım ilə.
Fəryaz, hər yerdə yazıb, söylə mənim sözlərimi.
Öyünüb fəxr edirəm Azəribaycanım ilə

Fəryaz HƏMİDOV.

AN İÇİNDƏ DÖVRAN GETDİ

Məqamında deyilməyən
Bir sözümün ağrısını,
Acısını çəkirəm mən.
Zamanında görülməyən
Bir işimin illər boyu
Cəfasını çəkirəm mən.
Məqam getdi, zaman getdi,
Unudulmaz bir an getdi,
An içində dövran getdi.
Vüsalına can atdığım,
Ümid getdi, güman getdi,
Mən duymadım o bircə an,
Mənə sarı üz çevirmiş,
Bir səadət pərisiymiş.
Məndən laqeydlik görüncə,
Mənə sarı baxıb getmiş.
Üzü dönük taleyimdən,
Ulduz kimi axıb getmiş.
Bəzən bircə baxış ilə,
Qəlbi oxumaq olarmış.
Bircə anda səhv etməklə,
Ömrü uduzmaq olarmış.

Mirzəbala YEDİYAROV.

DOYMAQ OLMUR SEVGİDƏN

Eşqin qüdrətinə bax,
Huşum başdan alacaq,
Gizlin sirmi qalacaq?
Bilmirəm neyçün, nədən,
Doymaq olmur sevgidən.

Qəlbimə duyğu axır,
Doğrumu, hədər axır?!
Məhəbbət yaşa baxmır,
Düşsə də saçıma dən,
Doymaq olmur sevgidən.

Vuruldun, canından keç,
İstəyin nə tez, nə gec…
Yar-yardan doyarmı heç;
Söylə doyarmısan sən?..
Doymaq olmur sevgidən.

Məhəbbət hünər istər,
Bunu sevənlər bilər,
Canıma od təpilər,
Məni tərk eyləyib getsən,
Doymaq olmur sevgidən.

Aşot UDİNOQLU.

MƏN SƏNİ SEVƏNDƏ

Mən səni sevəndə cavandı könlüm,
Dəli arzularla coşub daşırdım.
Körpə tək sığınıb qoynuna sənin,
Məsum baxışında uşaqlaşırdım.
Mən səni sevəndə gözümdə sevinc,
Dodağım sehrli sözlə doluydu.
Dünyanı gəzərdim sənlə durmadan,
Getdiyim o yollar sevgi yoluydu.
Mən səni sevəndə sən uca çinar,
Mən sənin kölgənlə qorunan güldüm.
Elə ki, kölgəni çəkdin üstümdən,
Quruyub, ətirsiz bir kola döndüm.
Mən səni sevəndə belə deyildim,
Onda isidirdi od-ocaq məni.
İndi əllərindən uzaq düşmüşəm,
Yıxılsam kim görən tutacaq məni?

Leyla ƏSGƏROVA.

BİLMƏRƏM

A dostlar, səhv yazsam keçin bu səfər,
Yazdığım kəlməni silə bilmərəm.
Qələmim dəftərə həqiqət səpər,
Düzlük carçısıyam, hiylə bilmərəm.

Təklikdən sifətim saralıb, solsa,
Sözlərim dilimdə pas atıb qalsa,
Qanı bir, canı bir qardaşım olsa,
Yaltaq süfrəsinə gələ bilmərəm.

Könlümün sevinci, həm də qəmiyəm,
Dəli pərvanəsi, həm də şəmiyəm.
Hələ ki, qızğınam, atəş kimiyəm,
Nə zaman dönəcəm külə, bilmirəm.

Tofiqəm, şeirdə, tükənməz sözüm,
İlhamım bəzəyib dağlarım, düzüm,
Ağlarkən ürəyim, yalandan özüm,
Bəzi arsızlar tək gülə bilmərəm.

Tofiq VƏNDAMLI.

ŞEH

Elə bil, çiçəklərin
O, zəridir, qaşıdır
Gündüzə həsrət qalan
Gecənin göz yaşıdır.

İKİ ANA

Ananın dodağında
Səsləndikcə nəğməsi.
Mışıl-mışıl uyuyur,
Qucağında körpəsi

Az keçmir ki, yuxuya,
Gedib yatır ana da.
Çünki təbiət - ana
Laylay çalıb ona da.

İSTƏK

Çəməndə ətirli
Çiçək olaydım,
Məni dərəydin,
Əllərində solaydım

Məhəmməd ƏLİ.

Tarixə düşüb adın

(Şəhid Təbriz Yaqubovun əziz xatirəsinə)

Kümə dağın qoynunda
Dağ vüqarlı böyüdün,
Çıxarmadan yadından,
Sən ananın öyüdün.

Düşmənə nifrət hissi
Sığışmadı köksünə,
Mehdi kimi döyüşdün,
Düşmənə gərdin sinə

Sevib Vətəni qəlbən
Yolunda şəhid oldun,
Bağçadakı gül kimi,
Tez açıldın, tez soldun.

Sən ananın qəlbinə
Sağalmaz yara vurdun.
Yazıq bacılarına,
Saçlarını yoldurdun.

Rahat uyu, əzizim,
Bir tarixdir həyatın.
Bumun ilk şəhidi tək,
Tarixə düşüb adın.

Emin BARATOĞLU

Bilməz

Məhəbbət doldura bilməyən gözü,
Var-dövlət, şan-şöhrət doldura bilməz
Əgər istəməzə Allahın özü
Yüz xəzan bir gülü soldura bilməz.
Keçi qiymətinə almışa səni,
Əfi ilan kimi çalmasa səni,
Özünük hörmətdən salmasa səni,
Özgəsi hörmətdən saldıra bilməz
Komradlı özünü yaxından tanı,
Satma var-dövlətə halal ad-sanı,
Namus, qeyrət qədər hər nə insanı
Uca dağ başına qaldıra bilməz.

Cəlil KOMRADLI.

BU DÜNYADA

Bu dünyada yaxşı da var, pis də var,
Gəl uymayaq biz pisliyə həyatda.
İnsan gərək insanlığı hifz edib,
Daim onu yüksəklərə ucalda.
Hər insanın öz istəyi, arzusu,
Yaxşı arzu cücərərək boy ata.
Pis arzular yaxşıların içindən,
Cücərməyən bir məkana atıla.
Pis arzular cücərəndə həyatda.
Nələr olur, nələr olub, bilirik.
Milyonları məhv eləyən savaşlar,
Qüssə olub, kədər olub, bilirik.
Ürəyimin arzusudur bu mənim,
Barış ola bu dünyada nəhayət,
Barış olub sülhə gəlsə insanlar,
Daha artıq gözəl olar bu həyat.

Əmirxan BURZUYEV.

O illərin gözəlləri

Hərəsi bir çiçək idi,
O illərin gözəlləri
Bir-birindən göyçək idi,
O illərin gözəlləri

Mavigözlü olub biri,
Şirinsözlü olub biri,
Laləüzlü olub biri,
O illərin gözəlləri.

Şəkər olub, noğul olub,
Bir əfsanə, nağıl olub..
Ürəklərdə adlar salıb,
O illərin gözəlləri.

Rahiləydi, Zahidəydi,
Şələləydi, Validəydi.
Xəyaləydi, Xalidəydi,
O illərin gözəlləri.

Quş tək qanad açıb-getdi,
Onlar hara üçüb-getdi?
Qaynar sevgi, məhəbbətdi,
O illərin gözəlləri.

Düşünürəm nələr-nələr?
"Zər qədrini, zərgər bilər!"
Hərəsi bir nənədilər,
O illərin gözəlləri.

Məşhurlaşıb, ad alıblar,
Bu Vətəndə ucalıblar.
Şakir, sən tək qocalıblar,
O illərin gözəlləri!

Şakir XƏYAL.

SƏNSİZLİK

Yalnız xəyalların yaşadır məni,
Sənli yuxularım təskinliyimdir.
Həsrətin alovu çaşdırır məni,
Külümü sovuran sənsizliyimdir.

Vaxtilə dediyim acı sözlərim,
Hər an qılınc kimi kəsir qəlbimi.
Köksümə yığılmış o kədər, o qəm,
Artıq tükəndirib mənim səbrimi.

Bilmirdim əcəlin insafsız oxu,
Səni yaxalaya, sənə tuş gələ.
Bilmirdim həyatın hamar yolları,
Bir anda dəyişib çuxura dönə.

Yalqızam həyatda, tənhayam indi,
Yalqızam, qəlbimdə qalıbdır izin.
Yalqızam, gözlərim üzünə həsrət,
Nə olar yuxuma girəydin özün.

Əfsanə XALİSQIZI.

ÜFÜQ ƏZİZDİR MƏNƏ

Üfüq əzizdir mənə,
Çünki Günəş hər zaman
Ordan doğur, ayrılır,
Şairlər də ilhamı
Elə üfüqdən alır.

Üfüq əzizdir mənə,
Şirinli xatirələr
Üfüqdə gəlir dilə.
Əlçatmaz sevgilim də,
Orda olur mənimlə.

Üfüq əzizdir mənə,
Anaların gözləri
Dikilir daim ora.
Durnalar da üfüqdən,
Gəlirlər ilk bahara.

Üfüq əzizdir mənə,
Çünki böyük Vətənim
Genişdir onun qədər.
Orda əriyib gedir,
Qəlbimdəkiqəm, kədər.

Mehrəli MEHRƏLİYEV.

HARDASAN

Qəlbim səninlə vurur, döyünür,
Tək dostum, həyatım, hardasan indi?
Sənsiz hisslərim də yerlə sürünür,
Aslanım, qartalım hardasan indi?

Birgə oxuduq biz sevgi nəğməsin,
Təkcə sən eşitdin qəlbimin səsin.
Bax, necə sızlayır eşq xatirəsi,
Məlhəmim, dərmanım, hardasan indi?

Bir sözünə bəndəm, uçum, gəlim mən,
Yeknəsək həyatdan qaçım gəlim mən,
Qəlbimi qəlbinə açım gəlim mən,
Ay eşqi-pünhanım, hardasan indi?

Nargilə QAFAROVA.

Uşaqlar

Bağşamız bağımızdı.
Ümid çırağımızdı,
Xoşbəxt sabahımızdı
Uşaqlar.
Tumurcuqdu, fidandı,
Vətənə ürək, candı,
Bütöv Azərbaycandı
Uşaqlar.
Onlarındı yer, səma,
Çatsınlar arzu, kama,
Dönsün məşhur adama
Uşaqlar.
Vətənin sabahıdı,
Vəziridi, Şahıdı,
Xalqın qibləgahıdı
Uşaqlar.
Biri artıb yüz olsun,
Babək,
Mübariz olsun
Tərbiyəsi düz olsun
Uşaqlar.

Əhməd MƏMMƏDLİ.